yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur









2 QADINA BƏNZƏR ROBOT VƏ ROBOTA BƏNZƏR QADINLAR

3 DÜŞÜNÜLMÜŞ XƏYANƏTİN GÖZLƏNİLMƏYƏN QARŞILIĞI

4 QEYRİ-RƏSMİ TƏHSİL İMKANLARI

6 XARİCDƏ TƏHSİL

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 İYUL 2018-Cİ İL

№010 (69)

## 15 İYUL HADİSƏSİNDƏN İKİ İL ÖTÜR



2016-cı il iyulun 15-i Türkiyənin bir neçə şəhərində, eyni zamanda Türk Silahlı Qüvvələri tərkibində özlərini Yurdda Sülh Şurası olaraq təyin edən FETÖ əsgərləri tərəfindən hərbi çevrilişə cəhd hadisəsi baş vermişdir. İlk öncə Türk Silahlı Qüvvələrinin rəsmi internet saytı və TRT-də yayımlanan məlumatda ordunun rəhbərliyə əl qoyduğu ifadə edilərək ölkədə hərbi vəziyyət və komendant saatı elan edildiyi açıqlandı.

İstanbuldakı Boğaziçi və Fateh Sultan Mehmet körpüsü jandarma tərəfindən bağlanıldı, Türkiyə Böyük Millət Məclisi başçısı İsmayıl Kahraman və təxminən 50-yə qədər millət vəkilinin məclisdə olduğu sırada F-16 döyüş təyyarələri məclis üzərində uçuş edərək parlamenti dörd dəfə bombaladı. Ankaranın Beştəpə səmtində olan Prezident Sarayını bombalama cəhdi olsa da alınmadı.

Muğlanın Marmaris mahalında bir oteldə olan Respublika başçısı Rəcəb Tayyib Ərdoğana qarşı sui-qəsd cəhdində oldular. Ayaqlanmalar üzərinə Respublika başçısı R.T. Ərdoğan, "CNN Türk"də "FaceTime" vasitəçiliyi ilə reallaşdırdığı əlaqədə üsyançılara heç bir şəkildə imkan tanınmayacağını ifadə edərək xalqı çevrilişə reaksiya vermək üçün meydanlara və hava limanlarına çıxmağa dəvət etdi. Çağırışın ardından Türkiyənin bir çox elində zərbə əleyhdarı etiraz nümayişləri təşkil edildi.

Bu çevriliş cəhdi nəticəsində 249 türk vətəndaşı şəhid edilmiş, minlərlə insan yaralanmışdır.

Bu hadisənin ikinci ilində Gürcüstanda da Türkiyə səfirliyi, TİKA, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı və Bütün Gürcüstan Müsəlmanları İdarəsi tərəfindən anım tədbirləri keçirilmişdir.

## BAŞ NAZİR MAMUKA BAXTADZE YENİ HÖKUMƏTİN TƏRKİBİNİ AÇIQLAYIB



Baş nazir Mamuka Baxtadze yeni hökumətin tərkibini açıqlayıb. Yeni nazirlər kabinetində üç yeni nazir təmsil olunacaq.

Təhsil, elm, mədəniyyət və idman naziri vəzifəsinə Mixeil Batiaşvili, iqtisadiyyat və davamlı inkişaf naziri vəzifəsinə Giorgi Kobulia, maliyyə naziri vəzifəsinə isə İvane Maçavarianinin namizədliyi təqdim olunub.

M. Batiaşvili Tbilisi Biznes və Texnologiyalar Universitetinin rektorudur. G. Kobulia Rusiyada sahibkarlıq fəaliyyəti ilə məşğul olub, İ. Maçavariani isə "Geocell" şirkətinin kommersiya direktoru vəzifəsində çalışıb.

Parlamentin yenilənmiş hökumətə bu həftənin sonunda etimad göstərəcəyi gözlənilir.

Qeyd edək ki, 14 nazirlikdən ibarət hazırkı müvəqqəti hökumət bu ilin iyunun 20-dən fəaliyyət göstərir. Hökumət strukturunda edilmiş dəyişikliklərə əsasən, 14 nazirliyin əvəzinə 10 nazirlik və 1 dövlət naziri aparatı qalacaq.

## GİORGİ MARQVELAŞVİLİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ANDİÇMƏ MƏRASİMİNƏ QATILIB

Gürcüstan prezidenti Giorgi Marqvelaşvili Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın inaqurasiya mərasiminə qatılmaq üçün Ankaraya səfər edib. Giorgi Marqvelaşvili türk həmkarını seçkidə qalib gəldiyinə görə təbrik edib.

İyirmidən çox dövlət başçısının iştirak etdiyi mərasimdə gürcü heyəti tərəfdaşlarla ünsiyyət zamanı NATO sammitinin məsələsini müzakirə ediblər. Türkiyənin Gürcüstanın Şimali Atlantika Alyansına inteqrasiyasını dəstəklədiyi diqqətə yetirilib.

Təntənəli tədbir çərçivəsində Türkiyə prezidentinin inaqurasiyasından sonra Rəcəb Tayyib Ərdoğan Giorgi Marqvelaşvilini və dövlət heyətlərinin rəhbərlərini rəsmi yeməyə dəvət edib.



## ŞALVA TADUMADZE GÜRCÜSTANIN YENİ BAŞ PROKURORU SEÇİLİB

Şalva Tadumadze Gürcüstanın baş prokuroru seçilib. Onun bu vəzifəyə namizədliyi Gürcüstanın Ədliyyə Nazirliyinin prokurorlar şurası tərəfindən dəstəklənib. Ş. Tadumadze hökumət administrasiyasının rəhbəri olub.

Baş prokuror vəzifəsinə Şalva Şavqulidze və Nino Qoqniaşvili də namizəd olub. Ş. Şavqulidze prokurorlar şurasının gizli səsverməsindən öncə namizədliyini geri götürüb.

Qeyd edək ki, Gürcüstanın sabiq baş prokuroru İrakli Şotadze bu ilin mayın 31-də istefa verib. İstefaya səbəb ötən ilin dekabrında paytaxtda iki yeniyetmənin qətli ilə bağlı Tbilisi şəhər məhkəməsinin qəbul etdiyi qərarın yaratdığı böyük narazılıq olub.



## HÖKUMƏT ADMİNİSTRASİYASINDA YENİ STRUKTUR YARADILIB

Gürcüstanın baş naziri Mamuka Baxtadze hökumət administrasiyasında yeni aparat rəhbəri vəzifəsi təsis edib. Bu vəzifəyə Giorgi Çoladze təyin olunub.

Baş nazirin aparatına ictimaiyyətlə əlaqələr, protokol və xarici əlaqələr üzrə şöbələr tabe olacaq.

Qeyd edək ki, Giorgi Çoladze Mamuka Baxtadzenin maliyyə naziri olduğu dövrdə Maliyyə Nazirliyinin aparat rəhbəri vəzifəsində çalışıb.





## QADINA BƏNZƏR ROBOT VƏ ROBOTA BƏNZƏR QADINLAR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**İstilərin bu qora bişirən vaxtı, camaatın başı sərin yer axtarmağa qarışdığı bir vaxtda, bir yandan Kvemo Kartli haqqında quberniyanın hazırladığı videonun qanqaraçılığı, digər yandan da borçalıların yaxşı tanıdığı, Marneulidə yaşayan Smit ailəsinin qəddarcasına müəmmalı öldürülməsi hadisəsinin onsuz da problemlər, stress, ümidsizliklə dolu həyat gündəmimizin rəngini daha da tündləşdirdiyi bir vaxtda xəbər yayıldı ki, bəs deməzsənmi dəmir ledi vətənimizə təşrif buyurur. Yox, yox, mən o dəmir ledini nəzərdə tutmuram. Qonağımız sözün həqiqi mənasında dəmirdi, robotdu.**

Məşhur Sofiya adlı insanabənzər, daha dəqiq qadınabənzər robot 17-19 iyul tarixində Tbilisidə keçiriləcək, dünyanın 70-dən çox ölkəsindən nümayəndələrin də qatılacağı "Açıq idarəçilik tərəfdaşlığı" adlı qlobal sammitdə iştirak etmək üçün ölkəmizə gəlir. Sofiya sammit çərçivəsində ictimai xidmətlər və innovasiyalar mövzusunda keçiriləcək sessiyada auditoriya qarşısında çıxış edəcək! Burada nida işarəsi qoyub, Sofiya haqqında bir az məlumat verim.

2015-ci ildə Devid Henson tərəfindən yaradılan robot qadın süni intellektə malikdir. İnsanların üzünü tanıyan Sofiya insan jestləri və üz hərəkətlərini (düz 62 emosiya) imitasiya edə, həmçinin əvvəlcədən müəyyənləşdirilmiş mövzuda söhbət edə, suallara cavab verə bilir. Sofiya qocalar evində qocalara, həmçinin böyük tədbirlərdə və parklarda insanlara kömək etmək üçün yaradılıb. Robotun bir özəlliyi də ondan ibarətdir ki, ona 2017-ci ildə Səudiyyə Ərəbistanının vətəndaşlığı verilib. Beləliklə də Sofiya vətəndaşlıq almış ilk robot kimi tarixə düşüb. Sərhədlənmiş dünyamızda vətəndaşlığın bəzən insanların həyatını xilas etdiyi bir zamanda, minlərlə insanın vətəndaşlıq ala bilmədiyi, didərgin yaşadığı halda qeyri-millətlərin vətəndaşlıq almasının mümkünsüz olduğu bir ölkə tərəfindən robota vətəndaşlıq verilməsini də elitanın uşaq şıltaqlığına yazaq. Sözüm onda deyil. Demək istədiyim başqa şeydir. Demək istədiyim odur ki, dünyanın o başından mexanizmdən ibarət qadın üzlü dəmir parçası Gürcüstana sammitdə çıxış etməyə gəlir, bizim ət və qandan ibarət, sammitin nə olduğunu bilməyən qadın üzlülərimiz isə (bura bəzi kişilər də daxildi) hələ də burada bart yandırmaqla orada Parisin dağılmasına, xoruzun başının kəsilməsi ilə Müsyö Jordanın başsız qalacağına inanırlar. Vallahi, billahi, tallahi mən hələ də bu qadınlara (bura bəzi kişilər də daxildir) təəccüb və təəssüf edirəm.

Dünya dəyişdi, insanı heyrətləndirən texnologiyalar yaradıldı, bizim caduya, fala inananlarımız dəyişmədi ki, dəyişmədi. Hələ də falçı yanına gedib ərini falçıdan öyrənən, yaxın qohumunu bədbəxt etmək istəyən, qonşusunu xəstələndirən, oğluna arvad axtaran, qızına ər gəzən, öz bəxtini açdıran, başqasının bəxtini və başqa zadlarını bağlatdıran, qotur xəstəliyindən tutmuş ürəyin sağ mədəciyinin hipertrofiyasına qədər müalicə etdirən robot qadınlarımız məhlə məhlədi. Ən pisi də təhsilli, ictimai statusu olanların falçı yanına getməsi, cadu düzəldirməsidi. Vallahi, billahi, tallahi mən bunun şahidi olmuşam. Həmin public personları siz də tanıyırsız. İstəsəniz lap inboksunuza da yaza bilərəm.

Deyirəm fürsətdi, bəlkə bu Miss Sofiyadan xahiş edək gəlmişkən bir bizim bu fala, cadu-pitiyə inanan və məşğul olan robot qadınlarımızı bir araya toplayıb treninq keçsin. Qandırsın ki, əri falçıdan öyrənmək lazım deyil, sadəcə ərin könlünü almaq, aradabir duxlanıb, daranıb, bəzənib-düzənib, oturub dərdini soruşub, ürəkdən söhbət etmək lazımdır. Desin ki, xəstələnəndə falçı yanına deyil, həkim yanına getsinlər. Pul qazanmaq üçün ağılla çalışsınlar. Əgər falçı sizi varlandıracaqsa niyə özünü varlandırmır, niyə sizin başınızı tovlayıb əlinizdən aldığı pulların hesabına yaşayır. Falçı xəstəlik müalicə edəndirsə əvvəlcə öz ağlını müalicə eləsin. Ümumiyyətlə məstəhətdir ki, falçı yanına gedənlər psixoloqa müraciət etsinlər. Çünki nanotexnologiya çağının adamları artıq onların ağlına şübhə ilə yanaşırlar. Başqasının ərini, arvadını, oğlunu, qızını güdənlər öz həyatlarına baxsınlar, öz həyatlarını yaşasınlar. Özlərinə məşğələ tapsınlar ki, yekə burunlarını başqalarının həyatına soxmağa vaxtları qalmasın.

Bir dəfə bir görüşdə tanınmış Azərbaycan yazıçısı azərbaycanlıların hobbisi olmadığı üçün başqalarının həyatı ilə məşğul olduqlarını dedi. Həqiqətən də belədir. İnsanlar boşluqdan, avaraçılıqdan başqalarının həyatlarına zəhər qatırlar. Bunu birbaşa edə bilməyəndə falçılara müraciət edirlər.

**Robot müəyyən proqram əsasında çalışan, əmr yerinə yetirən cansız maşındı. Falçıya inanıb ondan müəyyən tapşırıqlar alıb, əmr yerinə yetirən qadınlar da cansız robot kimi bir zaddır. Məsələn, Sofiya onlardan daha faydalıdır dünyamız üçün. Demək istədiyim budur ki, əcnəbilər seyrə (sammitə) robotlarla çıxır, biz hələ cadu-piti ilə ərlə arvadı boşatdırırıq. Heyhat!**

## HÖKUMƏT ADMİNİSTRASİYASINA YENİ RƏHBƏR TƏYİN OLUNUB



Gürcüstanın hökumət administrasiyasının rəhbəri Kaxa Kaxişvili təyin olunub. Bu barədə Gürcüstanın baş naziri Mamuka Baxtadze bildirib.

Baş nazir K. Kaxişvilinin hökumətin ən uğurlu nazirlərindən biri olduğunu deyib.

Qeyd edək ki, K. Kaxişvili 2015-ci ildən cəzaların icrası və probasiya naziri olub. Hökumətdə həyata keçirilmiş struktur dəyişikliklərinə əsasən, onun rəhbərlik etdiyi nazirlik Ədliyyə Nazirliyinə birləşdirilir. Hökumət administrasiyasının keçmiş rəhbəri Şalva Tadumadze isə ölkənin baş prokuroru vəzifəsinə təyin olunub.

## QİQİ TSERETELİ ATƏT-İN PA-NIN PREZİDENTİ SEÇİLİB




Gürcüstan Parlamentinin üzvü, "Avropalı Gürcüstan" partiyasının liderlərindən biri Qiqi Tsereteli yenidən ATƏT-in Parlament Assambleyasının (PA) prezidenti seçilib. Bu barədə qərar ATƏT PA-nın Berlində keçirilən 27-ci illik sessiyasında qəbul olunub.

"Avropalı Gürcüstan" partiyası Q. Tseretelinin ATƏT PA-nın prezidenti seçilməsi ilə bağlı bəyanat yayıb. Bəyanatda partiya liderlərindən biri olan siyasətçinin yüksək vəzifəyə seçilməsi Gürcüstanın böyük uğuru kimi qiymətləndirilib.

Qeyd edək ki, Q. Tsereteli ötən ilin noyabrından etibarən ATƏT PA-nın prezidentinin səlahiyyətlərini icra edib.

## ACARISTAN HÖKUMƏT BAŞÇISI VƏZİFƏSİNƏ NAMİZƏD İRƏLİ SÜRÜLÜB



Acarıstan Muxtar Respublikasının (MR) hökumət başçısı vəzifəsinə Tornike Rijvadzenin namizədliyi irəli sürülüb. Onun namizədliyi muxtar respublikanın Ali Məclisi tərəfindən dəstəklənib.

T. Rijvadze yaxın günlərdə yeni hökumətin tərkibini təqdim etməlidir. Bundan sonra muxtar respublikanın Ali Məclisi yeni hökumətə etimad göstərməlidir.

T. Rijvadze "Gürcüstan Energetikasının İnkişafı Fondu"nun direktorudur. Bu vəzifəyə qədər o, energetika nazirinin müavini olub.

Qeyd edək ki, Acarıstan MR-in keçmiş hökumət başçısı Zurab Pataradze iyulun 4-də istefa verib.

Z. Pataradze istefası ilə bağlı qərarın hakim komandada qəbul edildiyini deyib. O, hakim "Gürcü arzusu" partiyasında qalacağını qeyd edib.

Hökumət başçısının vəzifəsini tərk etməsi səbəbindən Acarıstan MR-ın nazirlər kabineti avtomatik olaraq istefaya göndərilib.

Z. Pataradze 2016-cı ilin iyulundan muxtar respublikanın hökumət başçısı vəzifəsini tutub. Bundan əvvəl o, Gürcüstanın Qazaxıstanda səfiri olub.

## BİRLƏŞDİRİLMİŞ NAZİRLİKLƏRİN ADLARINDA DƏYİŞİKLİK EDİLİB



Birləşmiş nazirliklərin adlarında dəyişiklik edilib. Hökumətin parlament katibi Natia Mikeladze bildirib ki, komitə ikinci dinləmə ilə tələbi nəzərə alıb və adlarda dəyişiklik həyata keçirib.

"Komitə ikinci dinləmədə sessiyada deyilən adlarla bağlı məsələni müzakirə etdi. Hökumətin mövqeyi belədir: Təhsil, Mədəniyyət və İdman Nazirliyinin adına elm sözü əlavə olunsun, yəni yeni nazirliyin adı Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi olsun. Həmçinin işğal ərazilərindən məcburi köçkün olan şəxslər əvəzinə İşğal Edilmiş Ərazilərdən Qaçqın, Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyi olacaq", – bildirib Natia Mikeladze.

## TÜRKİYƏ PREZİDENTİ YENİ HÖKUMƏTİN TƏRKİBİNİ TƏQDİM EDİB

Prezident Rəcəb Tayyib Ərdoğan iyulun 9-da Beştəpədəki Prezident Administrasiyasında Türkiyənin yeni hökumətinin tərkibini açıqlayıb.

Dövlət başçısı nazirlər kabinetinin yeni üzvlərini keçirdiyi mətbuat konfransında təqdim edib. Türkiyənin növbəti hökumətində Fuat Oktay prezidentin müavini, Abdulhamit Gül ədliyyə naziri, Zehra Zümrüt Selçuk əmək, sosial xidmətlər və ailə naziri, Murat Kurum ətraf mühit və şəhərsalma naziri, Mevlut Çavuşoğlu xarici işlər naziri, Fatih Dönmez enerji və təbii sərvətlər naziri, Mehmet Kasapoğlu gənclər və idman naziri, Berat Albayrak xəzinə və maliyyə naziri, Süleyman Soylu daxili işlər naziri, Mehmet Ersoy mədəniyyət və turizm naziri, Ziya Selçuk milli təhsil naziri, Hulusi Akar milli müdafiə naziri, Fahrettin Koca səhiyyə naziri, Mustafa Varank sənaye və texnologiyalar naziri, Bekir Pakdemirli kənd təsərrüfatı və meşə naziri, Ruhsar Pekcan ticarət naziri, Cahit Turan isə nəqliyyat və kommunikasiya naziri vəzifəsinə təyin olunub.



Göründüyü kimi, Türkiyədə yeni idarəetmə sisteminə keçid əsasından formalaşan hökumət strukturunda ixtisar və birləşmələr mövcuddur. Bunun sayəsində nazirlərin sayı 16-ya endirilib. Bir prezident müavini ştatı yaradılıb. Bundan başqa, yeni kabinetdə təmsil olunanların əksəriyyəti yeni namizədlərdir. Hökumətin tərkibində iki qadın nazir təmsil olunur.

Qeyd edək ki, iyulun 9-dan etibarən Türkiyə Cümhuriyyəti prezident üsul-idarəli hökumət sisteminə qədəm qoyub.

## RƏCƏB TAYYİB ƏRDOĞANIN ANDİÇMƏ MƏRASİMİ OLUB

İyunun 24-də Türkiyədə keçirilən növbədənkənar prezident seçkilərində yenidən dövlət başçısı seçilən prezident Rəcəb Tayyib Ərdoğan iyulun 9-da Türkiyə Böyük Millət Məclisində (TBMM) and içib.



Əvvəlcə TBMM-nin müvəqqəti sədri Durmuş Yılmaz prezident seçkilərinin nəticələri və Türkiyədəki yeni idarəetmə sistemi barədə məlumat verib.

Prezident Rəcəb Tayyib Ərdoğan andiçmə mərasimində çıxış edib.

Bununla da Türkiyədə prezident üsul-idarəli hökumət rəsmən fəaliyyətə başlayıb.

Andiçmə mərasimindən sonra prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbiri ziyarət edib.

Rəcəb Tayyib Ərdoğanın yeni prezidentlik dövründə fəaliyyətə başlaması münasibətilə təşkil olunan rəsmi mərasimə 22 prezident, 28 baş nazir və parlament sədri, 6 beynəlxalq təşkilat rəhbəri və çoxlu sayda digər xarici qonaq və yerli ictimaiyyətin nümayəndələri qatılıblar.

Prezident Rəcəb Tayyib Ərdoğan rəsmi ziyafətdən sonra yeni hökumətin tərkibini açıqlayıb.

Xatırladaq ki, Türkiyə Ali Seçki Komissiyasının seçkilərin yekunu ilə bağlı rəsmi məlumatına görə, ölkə üzrə təxminən 60 milyon seçicinin 26 milyon 330 min 823 nəfəri Rəcəb Tayyib Ərdoğana səs verib.

## BİNƏLİ YILDIRIM TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ SEÇİLİB

Hakim Ədalət və İnkişaf Partiyasının namizədi Binəli Yıldırım Türkiyə Böyük Millət Məclisinə sədr seçilib.

Sədrlik uğrunda mübarizədə 3 tur səsvermə aparılıb. Binəli Yıldırım üçüncü səsvermədə 584 deputatın 335-nin səsini toplayaraq Türkiyə Böyük Millət Məclisinin sədri olub.



## AVROPA İTTİFAQINA VİZASIZ GETMƏK ÜÇÜN HANSI TƏNZİMLƏMƏLƏR TƏYİN OLUNUR

Avropa Parlamenti Avropa İttifaqı ilə vizasız rejimi olan ölkələrin vətəndaşları üçün pullu elektron avtorizasiyanın təyin edilməsini dəstəkləyib. Bu haqda Avropa Paramentinin mətbuat xidməti məlumat yayıb.

Avropa İttifaqına Səyahət Məlumatı və Avtorizasiya Sistemi (ETIAS) 2021-ci ildən qüvvəyə minəcək.

Yeni tənzimləmələrə əsasən, elektron avtorizasiyanın dəyəri 7 avro təşkil edir. Qeyd olunan avtorizasiya 18 yaşa qədər və 70 yaşdan yuxarı şəxslərə pulsuz olacaq. Elektron avtorizasiya qəbul edildikdən 3 il müddətinə qüvvədə olacaq.

Namizədlər avtorizasiya keçərkən şəxsi məlumatlarından əlavə son on il ərzində keçmişdə məhkumluğu, müharibə və ya konflikt ərazisində olması, hansısa ölkəni tərk etməsini tələb edən, onunla bağlı olan inzibati qərarlar haqqında da məlumat verməlidir.

## DÜŞÜNÜLMÜŞ XƏYANƏTİN GÖZLƏNİLMƏYƏN QARŞILIĞI



Hacı BƏKİROĞLU

*hacibakir@mail.ru*

**Osmanlının süqut edib Türkiyə Cümhuriyyətinin yaranmasından sonra ölkədə bir çox hərbi çevrilişlər, çevriliş cəhdləri və üsyanlar baş vermişdir. Bu çevriliş cəhdlərinin bəziləri baş tutmuş, bəzilərində isə məqsədə çatılmamışdır. Ölkə yadların nəzarətində idi. Türkiyə bir az irəlilədikdə, inkişaf yolunu tutduqda həmən arxasınca bir müdaxilə gəlirdi, həmən bir çevriliş olurdu. 27 may, 12 mart, 12 sentyabr, 28 fevral misalı.**

Bu cür üsyanlarla hökumətin gücünü zəiflədib, hakimiyyəti ələ ala biləcəklərini düşünənlərdən bir qrupu da 15 iyul 2016-cı il tarixində üsyan çıxaran FETÖ yandaşları idi. Bəs kimdir bu FETÖcülər? İslam adı altında fəaliyyət göstərən, ancaq İslamla heç bir əlaqəsi olmayan bir qruplaşmadır. Başında da özünü bir dini lider olaraq görən Fətullah Güləndir. Hansı ki, bu şəxs qurduğu paralel sistemlə dövləti ələ keçirmək istəyirdi. O şəxs ki, millətin zəkat pulunu, sədəqə pulunu məktəb tikdirmək, təhsil müəssisələri açmaq adı altında yığaraq dövlətə qarşı gəlmək üçün qruplaşmalara xərcləyib. Açdığı məktəblərdə də xəyanət toxumları əkib.

Dövlətin bütün qurumlarında və orqanlarında öz adamlarını yerləşdirmiş bu qruplaşma son bir həmlə edərək işi bitirmək istədilər. Ancaq onların hesaba almadıqları bir şey vardı: millətin gücü. Onlar bir millətin yenidən oyanışını və dədələrin nələr uğruna əldə etdiyi bu vətəni qoruyacaqlarını düşünmədilər. Düşünmədilər ki, bu millətin daxilində Ərtoğrullar, Osman Qazilər, Fatih Sultan Məhmədlər yatır.

Onlar düşünmədilər ki, o məmləkətdə özləri kimi vətən xainləri deyil, sinədə həqiqi iman daşıyan igidlər, ərlər yaşayır. Onlara tabe olmayaraq gerçəkdən də vətənsevər bir əsgər olan Ömər Halisdəmir, Ayşə Aykaç kimi bir ev xanımı və yüzlərlə vətən sevdalısının onlara dur deyəcəklərini düşünmədilər. Düşünə də bilməzdilər. Çünki onları düşündürən tək şey xəyanətləri idi.

Bu xayinlər türk əsgərinin əli ilə öz xalqına güllə attırmaqdan belə çəkinmədilər. Xalqın pulu ilə tikilmiş millət məclisini, prezident sarayını bombaladılar.

Tankların, hərbi təyyarələrin üsyana başladığı anda xalqın istəyi ilə ölkənin başına gəlmiş Rəcəb Tayyib Ərdoğan İstanbuldan uzaqda olsa da milləti vətənin müdafiəsinə səslədi. Çox çəkmədi ki, elə özü də bu millətin sıralarında yerini aldı. Bu qəhrəman millət vətənin necə qorunacağını bir daha dünyaya sübut etdi.

Ürəyi vətən eşqi ilə vuran qəhrəman xalq 7-dən 70-ə hər kəs küçələrə axın etdi. Bu ölkənin bir daha yadlara qurban edilməyəcəyini göstərdi. Bu yolda 249 şəhid verildi. Yüzlərcə insan qazi oldu. Ən əsası isə vətən yadlara təslim edilmədi. Yalın əllə tankların üstünə yeriyən xalq xəyanətin cəzasını verdi.

Bu hadisədən türk xalqının qəhrəman və alnıaçıq çıxmasının arxa tərəfində bəlkə də neçə-neçə Allah dostunun duası vardır. Bəlkə də zülmə uğrayan müsəlman ölkələrə olunan və olunacaq yardımların sayəsində Allah bu xalqa dəstək oldu.

O xaincəsinə baş verən çevriliş cəhdindən 2 il ötür. Bu iki il ərzində türk xalqı bir bütün olmağı, vətənini, millətini qorumağı öyrəndi.

**15 iyul hadisəsində şəhid olanlara Allahdan rəhmət, qazilərə də şəfalar diləyirəm.**



## QEYRİ-RƏSMİ TƏHSİL İMKANLARI

Şəlalə ƏMİRCANOVA

**Günümüzdə xaricdə təhsil deyəndə ağlımıza ilk olaraq rəsmi proqramlar çərçivəsində tələbələrin bakalavr və ya magistr pilləsi üzrə təhsil almaqları gəlir. Ancaq ən önəmli məqamlardan biri, çox zaman, necə ki gənclərin, eləcə də böyüklərin gözündən qaçır, bu, qeyri-rəsmi təhsil imkanlarıdır. Bu yerdə əlbəttə ki, qısa müddətli tələbə mübadiləsi proqramları nəzərdə tutulur. Günümüzdə Gürcüstandan xaricə getmək bir qədər asanlaşdırılmış olsa da, bizlər bunu bir o qədər də çətinləşdiririk, gözümüzdə böyüdürük və bəzi hallarda da imkansızmış kimi görürük. Yuxarıda da qeyd etdiyim kimi, xaricə gedib təhsil almaq, təcrübə qazanmaq deyəndə ancaq universitetdə olan rəsmi (formal) təhsili düşünürük. Hərkəsin çox yaxşı tanıdığı "Erasmus" və "Erasmus +" proqramlarının qeyri-formal təhsili nəzərdə tutan bir neçə istiqamətlərinin olduğundan hələ də bir çoxumuzun məlumatı yoxdur.**

Avropa ölkələrində gənclərin və tələbələrin ən çox müraciət etdiyi də məhs "Erasmus +" proqramının imkanların inkişafı (capacity building) istiqamətidir. Adı çəkilən istiqamət çərçivəsində gənclər təşkilatları qısa müddətli mübadilə proqramları həyata keçirirlər. Müxtəlif mövzular üzrə həyata keçirilən bu layihələrin və mübadilə proqramlarının əsas məqsədi könüllülüyün və qeyri-rəsmi təhsilin inkişafıdır.

2018-ci ildə "Erasmus +"un dəstəyi ilə həyata keçirilən layihələrdən birində iştirak etmək şansını qazandım. Layihə çərçivəsində 1 ay ərzində Latviyada gənclər təşkilatında təcrübə proqramına qatıldım. Az müddət ərzində bir çox yeniliklə tanış olaraq bir çox tərcübələr qazandım. İlk növbədə qeyd edərdim ki, Latviyada gənclər təşkilatlarının əsas xüsusiyyətlərindən biri də təşkilatların məhs gənclər tərəfindən idarə edilməsidir. Orada gənclər və yerli hakimiyyət arasında sıx bir əlaqə var. Qeyri-hökümət sektoru və dövlət müəssisələri əməkdaşlıq edərək müxtəlif layihələr həyata keçirir. Gənclərin yeniliklərə, təcrübəyə açıq olmaları isə məhs əsas fərqlərdən biridir. Könülülükdən əlavə qeyri-rəsmi təhsil sahəsi də bir o qədər inkişaf edib. Treninq-seminarlar, TEDx-lər, məruzələr, rəsmi və qeyri-rəsmi görüşlərə qoşularaq təcrübə və bilik qazanmaq isə gənclər arasında gündəlik yaşam tərzinə çevrilib.

Məktəblərimiz arasında bir qədər bənzərlik olsa da, fərqliliklər də mövcuddur. Məktəblər 12 illikdir, ancaq məktəb attestatı alan hər bir şagird istəyi üzrə tələbə adını qazana bilir. Çünki orada əlavə olaraq universitetə qəbul imtahanları yoxdur və məktəb qiymətləri ilə universitetlərə qəbul olmaq mümkündür. Məktəb sistemi bir çox könüllülük və təcrübə proqramlarında iştirak etməyi nəzərdə tutur. Burada şagirdin qeyri-rəsmi təhsil sahəsində qazandığı bilik böyük önəm daşıyır. Məktəblər ümumi dövlət sisteminə tabə olsalar da hər bir məktəbin xüsusi tədbis proqramı mövcuddur. Şagirdlər öz seçimləri ilə məktəbi bitirən zaman əsas dərslərdən əlavə sosial araşdırmalar aparırlar və müxtəlif sahələr üzrə çalışırlar.

Latviyada demək olar ki, hər bir şəhərdə müxtəlif fakültələrdən ibarət dövlət universitetləri fəaliyyət göstərir və gənclər ali təhsil almaq üçün bizdəki kimi paytaxta üz tutmaq məcburiyyətində qalmırlar. Dövlət universitetlərində təhsil almaq isə, əlbətdə ki, tam təmmənasızdır. Universitetlərdə nəzəriyyə biliyindən əlavə praktiki bilik böyük önəm daşıyır. Əlbəttə ki, qrup işləri, müxtəlif çalışmalar, müzakirələr və oxşar fəallıqlar tələbələrin gündəlik rutinidir. Universitetlərdən əlavə, peşə məktəbləri və kolleclər də bir çox yaş qrupuna xidmət göstərir.

**İştirak etdiyim layihə çərçivəsində bir çox dövlət müəssisələrində, QHT-lərdə və təhsil strukturlarında məlumatlandırıcı görüşlərimiz nəticəsində yiyələndiyim yeni təcrübə və bilik bir daha xarici təcrübənin nə qədər önəm daşıdığını təsdiqlədi. Bundan əlavə, qeyri-formal təhsilin insana böyük təcrübə qazandırdığını elə öz üzərimdən gördüm. Düşünürəm ki, hər kəs bir dəfə belə olsa özünü sınamalı, oxşar layihələrdə iştirak etməlidir. Bu, bizim biliyimizi artırmaqla yanaşı sosial cəhətdən inkişaf etdirir, yeni yerlər gəzib görməyimizə, dil öyrənməyimizə və ən əsası yeni insanlarla əlaqə qurmağımıza səbəb olur.**

## AİLƏDƏ ZORAKILIQ İTTİHAMI İLƏ SON 6 AYDA 1328 NƏFƏR MƏSULİYYƏTƏ CƏLB OLUNUB

Daxili İşlər Nazirliyinin (DİN) məlumatına əsasən, son 6 ay ərzində ailədə zorakılıqla bağlı müəssisəyə müraciət artıb. Bununla bağlı daxili işlər nazirinin müavini Natia Mezvrişvili brifinqdə açıqlama verib.

"İstəyirik cəmiyyətə ailədə zorakılıq, qadına qarşı zorakılıq və diskriminasiya işarəsi ilə törədilən cinayətlərə qarşı mübarizə məqsədi ilə DİN tərəfindən 2018-ci ilin 6 ay ərzində aparılan tədbirlər haqqında məlumat verək.

İnsan Hüquqlarının Müdafiəsi Departamenti və DİN-in struktur şöbələrinin davamlı şəkildə çalışması nəticəsində 2018-ci ilin 1 yanvarından 1 iyuluna qədər olan dövrdə:

Ailədə zorakılığa dair 2804 faktla bağlı istintaq başlayıb, 1933 şəxsə qarşı isə cinayət işi açılıb. Bu isə keçən ilin ümumi göstəricilərinə bərabərdir. Ailədə zorakılıq ittihamı ilə cari ilin 6 ay müddəti ərzində 1328 şəxs saxlanılıb. 2018-ci ilin ilk 6 ay müddəti ərzində 3292 həbs etmək üçün order yazılıb. Saxlama orderinin şərtlərinin pozulmasının göstəricisi 7%-dir. DİN-in məlumatına görə, əsasən "yaxınlaşma qadağasının" pozuntusu qeydə alınıb.

DİN ailədə zorakılığa qarşı aktiv mübarizəni sistem daxilində və eləcə də sistem xaricində həyata keçirir.

2018-ci ildə Baş Müfəttişlik tərəfindən ailədə zorakılıqla bağlı aparılmış xidməti yoxlayış əsasında 10 polis əməkdaşına cərimə təyin olunub. Konkret olaraq ailədə zorakılığa qarşı müvafiq olmayan reaksiyaya görə 4 polis əməkdaşına cərimə təyin edilib, 3 əməkdaş isə DİN-dən azad olunub.

Cari ilin sonuna qədər elektron biləkliklər yaradılacaq. Onunla yüksək risk daşıyan zorakıların hərəkətləri kontrol ediləcək.

2018-ci ildə 6 ay müddətində diskriminasiya işarəsi ilə törədilmiş cinayətlərə görə 50-dən çox şəxs həbs olunub. Bu isə 2017-ci ilin ümumi göstəricilərindən artıqdır.



Bundan əlavə, istəyirik ki, cəmiyyətə DİN tərəfindən hal-hazırda Parlamentdə müzakirə olunan qanunverici dəyişikliklər haqqında məlumat verək:

1. Ailədə zorakılığa dair cəza ciddiləşir;

2. Gender işarəsi ilə cinayət törətmək ayrı cinayətlər üçün ağır vəziyyətə çevrilir;

3. Ailə cinayətinin təkrar törədilməsi üçün cəza ciddiləşir;

4. Həbs və müdafiə orderinin şərtlərinin pozulması üçün bu gün mövcud olan inzibati məsuliyyətin əvəzinə birbaşa cinayət məsuliyyəti nəzərdə tutulub.

Aparılan tədbirlər nəticəsində:

Həbs orderlərinin verilməsi, istintaqın başlanılması və cinayət təqiblərinin göstəricisi artıb;

Zorakılığın təkrar olunması riskinin qiymətləndirilməsinin monitorinq mexanizmi üzərində çalışmalar başa çatıb. Bu isə zorakılığın effektli şəkildə aradan qaldırılması imkanı yaradır;

Cinayət işlərində diskriminasiya motivinin aradan qaldırılması hallarının sayı artıb;

Ailədə zorakılıq, qadına qarşı zorakılıq və diskriminasiya motivi ilə törədilmiş cinayətlərə dair müstəntiqlərin ixtisaslaşdırılması prosesi başlayıb;

Gürcüstan Daxili İşlər Nazirliyi ailədə zorakılığı, qadına qarşı zorakılıq və diskriminasiya motivi ilə törədilmiş cinayətlərin aradan qaldırılması, cinayətlərin hər bir faktına səmərəli reaksiya göstərmək məqsədi ilə aktiv çalışmağa davam edir.

Gürcü dilindən tərcümə:
Aynurə ƏLİYEVA

## BU İL SÜRÜCÜLÜK VƏSİQƏSİ ALMAQ İSTƏYƏN 108 834 NƏFƏRİN 71%-İ İMTAHANDAN KEÇƏ BİLMƏYİB



Bu il sürücülük vəsiqəsi almaq üçün praktiki imtahan verən 108 834 nəfərin 71%-i imtahandan keçə bilməyib.

Gürcüstan Daxili İşlər Nazirliyinin (DİN) məlumatına əsasən, 2018-ci ilin ilk yarısında Gürcüstan miqyasında sürücülük vəsiqəsinin nəzəri imtahanında 57 378 nəfər iştirak edib. Onun 31 316-sı imtahanı uğurla verib, 26 062-si isə verə bilməyib. Praktiki imtahanda isə 2018-ci ilin ilk yarısında 108 834 nəfər qeydə alınıb. Onun 31 894-ü imtahanı verib, 76 940-ı isə imtahandan kəsilib.

Ötən il isə DİN-in sürücülük vəsiqəsinin nəzəri imtahanında cəmi 143 854 qeydiyyat olub. Onlardan 80 659-u uğurla imtahanı verib, ancaq 63 195 nəfər imtahandan kəsilib. İmtahanın praktiki hissəsində isə 345 053 nəfərdən 74 877-si imtahanı verib, 170 176-sı isə imtahanı verə bilməyib.

## KANALİZASİYALARA ATILAN TULLANTILARA GÖRƏ CƏRİMƏ TƏTBİQ OLUNACAQ

Parlamentə təqdim olunmuş qanunvericilik təklifinə əsasən "su haqqında" Gürcüstan qanununa dəyişiklik daxil edilir. Kanalizasiya sisteminə tullantılar atanlar cəzalandırılacaqlar.



Layihənin izahatında qeyd olunduğuna əsasən, qanunlayihənin qəbul edilməsinin məqsədi məntəqələrin kanalizasiya sisteminə fiziki və ya hüquqi şəxslər, həmçinin sənaye-məişət obyektləri, heyvandarlıq fermaları, aqro sənayeçilik kompleksləri və digər obyekt sahibləri tərəfindən suyun kontrolsuz və normaya uyğun olmayan şəkildə buraxılmasının tənzimlənməsi və kanalizasiya sisteminə Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulmuş tullantıların atılmasının qadağan edilməsidir.

"Qanunlayihə çərçivəsində Gürcüstan hökumətinin qərarı ilə təsdiqlənmiş texniki reqlamentin qəbul edilməsi müəyyən edilib. Reqlament məntəqənin kanalizasiya sisteminə suyun buraxılması/qəbul edilməsi prosedurunu və kontrol mexanizmini, kanalizasiya sisteminə buraxılmış maddələrin yolverilən konsentrasiyalarını müəyyən edir. Reqlament kanalizasiya sisteminə su axıdan sistem operatorları və sistem istifadəçiləri arasında münasibətləri tənzimləyəcək. Həmçinin sistemə su buraxılan zaman Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulmuş tullantıların atılması, sistemin operatoruna dəyən zərərin qarşılanması qaydasını da müəyyən edir", – izahat kartında qeyd olunur.

Nazirlik 2018-ci ilin 15 iyul tarixinə qədər işləməli və hökumətə təsdiqləmək üçün "kanalizasiyanın mərkəzləşdirilmiş sisteminə suyun buraxılması və qəbul edilməsi şərtlərinin, çirkli maddələrin yolverilən normaları haqqında" texniki reqlament təqdim etməlidir.

Qeyd etmək lazımdır ki, İnzibati Xətalar Məcəlləsinə də dəyişikliklərin daxil edilməsi planlaşdırılır. Konkret olaraq, dəyişikliklərə əsasən, kanalizasiya sisteminə tullantıların atılması, eləcə də texniki reqlamentin şərtlərinə uyğun olmayan şəkildə suyun axıdılması – fiziki şəxs üçün 400 lari və hüquqi şəxs üçün 1000 lari vəsaitlə cərimələnəcək. Hərəkətin təkrar olunması halında isə cərimə ikiqat olacaq – fiziki şəxslər üçün 800 lari, hüquqi şəxslər üçün 2000 lari cərimə təyin olunacaq.

## SƏS-KÜY HAQQINDA QANUNUN POZULMASI HALLARINI YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI KONTROL EDƏCƏK



Səs-küy haqqında qanunun pozulması hallarını Daxili İşlər Nazirliyi (DİN) kontrol etməyəcək. Gürcüstanın İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər daxil edilib. Dəyişikliklərə əsasən, akustik səs-küyün yolverilən normalarının çoxalması faktlarını DİN-in əvəzinə ölkə miqyasında yerli özünüidarəetmələr kontrol edəcək.

"Cari ilin 1 iyul tarixinə qədər gündüz və ya gecə saatlarında yaşayış evlərində, özəl mülk olan daşınmaz əmlak və ya ictimai müəssisələrin binalarında akustik səs-küyün yolverilən normadan artıq olmasına görə inzibati məsuliyyətə cəlb olunmanı DİN müəyyən edirdi. Qəbul edilən dəyişikliklərə əsasən, akustik səs-küyün yolverilən normaların artması faktlarına yerli özünüidarəetmə orqanları reaksiya göstərəcəklər və qeyd olunan normaların pozuntularına görə müvafiq inzibati məsuliyyətə cəlb edəcəklər.

DİN Tbilisi meriyasının müraciəti və normativ aktların əsasında 10 səs ölçən qurğunu artıq paytaxt meriyasına verib. Yerli özünüidarəetmə orqanları üçün 20 xüsusi səs ölçən qurğunun verilməsi mərhələli şəkildə həyata keçiriləcək.

"Gürcüstan İnzibati Xətalar Məcəlləsinin 77¹ və 77² maddələri 2017-ci ilin 30 iyul tarixindən əlavə edilib. Maddələrə əsasən, akustik səs-küyün yolverilən normalarının artırılması üçün inzibati məsuliyyət qanunla müəyyən ediləcək", – DİN-in yayımladığı məlumatda bildirilir.

## QEYDİYYATDAN KEÇMƏMİŞ TAKSİ SÜRÜCÜLƏRİ FƏALİYYƏT GÖSTƏRƏ BİLMƏYƏCƏKLƏR




Qeydiyyatdan keçməmiş taksi sürücüləri fəaliyyət göstərə bilməyəcəklər. Qeydiyyat 2018-ci ilin 1 noyabr tarixindən qüvvəyə minəcək və 2019-cu ilin 15 avqust tarixində başa çatacaq. Yeni qanuna əsasən, noyabrın 1-dən qeydiyyatdan keçməmiş fəaliyyət göstərən taksi sürücüləri 200 lari cərimələnəcəklər.

Bununla bağlı sakrebulo aktında qeyd olunub ki, paytaxt Tbilisidə yalnız bir rəngdə və bir xarici görünüşü olan taksilər əhaliyə xidmət göstərsin. Həmçinin ikinci mərhələdə taksi şirkətlərinin hansı öhdəlikləri olacağı da aktda qeyd olunub.

"Qanun artıq qüvvədədir. 1 noyabr tarixindən icazəsiz xidmət göstərmək qanunsuz hesab olunacaq. Qeydiyyat ən son 15 avqust tarixindən qüvvəyə minə bilər. Ancaq icazə almaq üçün iki-üç ay vaxt olacaq. Evində elektron icazə ala bilməyənlər icra hakimiyyətlərinə gedib məsləhət ala biləcəklər. Qeydiyyatın qiyməti aşağı və əlçatandır. Elektrik maşınların qeydiyyatı pulsuz olacaq. Hibrid avtomobillər üçün qeydiyyatın qiyməti 50 lari, geridə qalan bütün avtomobillər üçün isə 100 lari olacaq",– deyə Tbilisi merinin müavini Maia Bitadze bildirib.

Mer müavini ikinci mərhələnin 2019-cu ilin sonundan başlayacağını da qeyd edib. "Birinci mərhələdə taksi sürücüləri yalnız icazə alacaqlar. Onların icazə öhdəliyi təkcə taksi işarəsini avtomobilin üzərinə yerləşdirməkdən ibarət olacaq. Sakrebulonun aktında ikinci mərhələ üçün, yəni 2019-cu ilin sonundan hansı öhdəliklərin daxil olacağı da yazılacaq. Eyni rəng və eyni vizuallıqdan söhbət gedir. Həmçinin sağ sükanlı avtomobillər də müzakirə olunur. Ola bilsin əlavə hallar aşkarlansın və ilin sonuna qədər bunun ictimailəşdirilməsi üçün öhdəliyimiz var", – bildirib Maia Bitadze.

## XƏSTƏLƏR HƏKİMİN YAZDIĞI RESEPTİ KONTROL EDƏ BİLƏCƏKLƏR



Səhiyyə Nazirliyinin məlumatına əsasən, beş və ya daha çox medikament yazdığı halda xəstələr həkimin reseptini yoxlaya biləcəklər. Bir neçə meyar müəyyən edilib və onun əsasında dərmanların artıq olub olmaması yoxlanılacaq. Həmçinin iki və ya daha çox antibiotikin təyin edilməsinə, eyni farmakoloji qrupun medikamentlərinin yazılması kimi hallara da diqqət yetiriləcək. Ancaq qeyd etmək lazımdır ki, belə hallarda medikamentlərin qəbulu üsulları nəzərə alınacaq. Məsələn, qəbul üsulu fərqli olan (biri həb, digəri isə maz şəklində) iki antibiotik təyin edilə bilər. Vətəndaşlar həkimin təyinatını Sosial Xidmət Agentliyinin region filialına resepti təqdim etməklə, həmçinin vətəndaşın soyadı ilə elektron reseptlər sistemində yoxlaya biləcəklər. Bunun üçün şəxs öz parolu ilə elektron reseptlər sisteminə daxil olur. Orada reseptdə düymə görsənir və onun vasitəsi ilə həmin resept müzakirə üçün avtomatik şəkildə əczaçılıq məsələləri üzrə çalışan komissiyaya yüklənir. Xəstə üç gün ərzində həmin portal vasitəsilə reseptin nəzarətə ehtiyacı olub, olmaması haqqında cavab alır. Xəstələri miqdarından artıq dərman preparatlarının qəbulundan qoruyan qayda 16 iyul tarixindən qüvvəyə minəcək.

## 2005-Cİ İLƏ QƏDƏR İSTEHSAL OLUNMUŞ AVTOMOBİLLƏRİN İDXALI TEZLİKLƏ QADAĞAN OLUNACAQ



Tbilisi meri Kaxa Kaladzenin bəyənatına əsasən, köhnə maşınların ölkəyə gətirilməsi qadağan olunmalıdır. Qərar sərt ola bilər, ancaq paytaxtda hava keyfiyyətinin yaxşılaşdırılması üçün başqa çıxış yolu yoxdur.

Qonşu ölkələrdə olduğu kimi "Avro-5" standartı Gürcüstanda da qüvvəyə minəcək. Nəqliyyat sahəsi üzrə mütəxəssislər yeni qanunverici dəyişikliklərin zamanında olduğunu qeyd edirlər, ancaq onların fikrincə dövlətin əhalini həvəsləndirməsi vacibdir. Belə halda onlar da dövlətin avtoparkının yenilənməsinə qoşulacaqlar.

Məlumdur ki, Parlamentin Ətraf Mühitin Mühafizəsi və Təbii Resurslar Komitəsinin araşdırması çərçivəsində yeni qanunvericilik təşəbbüsü üzərində və köhnəlmiş avtomobillərin qadağan olunmasına dair çalışmalar gedir.

# XARİCDƏ TƏHSİL

Rusiya arzusu məndə uşaqlıqdan peyda olmuşdu. Bu, məktəbə getməmişdən əvvəl ömrümün bir il yarımını Rusiyada qalmağımla da bağlı ola bilər, 4-5 yaşlarımda ilk dəfə anamın mənə rus (kiril) hərflərini öyrətməsi ilə də bağlı ola bilər. Bütün bunlara baxmayaraq mən orta təhsilimi Azərbaycan dilli məktəbdə başa vurdum. Məktəbi bitirdikdən sonra Rusiyada oxumaq şansımın olduğunu öyrənəndə dərhal düşünmədən razılaşdım, başqa bir yer belə axtarmadım. Rusiya deyəndə başqalarında necə bilmirəm, mənim ilk ağlıma dünyanın ən böyük və güclü dövləti gəlirdi.

Məktəbdən sonra təhsil almaq istəyi məni alim olmaq iddiasına sürükləmirdi, istəyim sadəcə dünya görüşümü tənzimləmək və beynimdə dolaşan dar fikirlərdən qurtulmaq idi.

Hər şeydən əvvəl məktəbi bitirdikdən sonra vəziyyətdən üzüağ çıxmaq üçün qarşımda bir planım vardı, ancaq iki seçim arasında qalmışdım. Planım təhsilimi davam etdirib, dil öyrənmək idi. Seçim isə gürcü və rus dilləri arasında idi.

Gürcü dilini seçsəydim Gürcüstanda qalma ehtimalı daha böyük idi, mən isə xaricə getməyə daha çox həvəsli idim. Rus dilinə ehtiyac duyulduğunu mən Türkiyədə də hiss eləmişdim. Düşdüyüm vəziyyətlər, düşüncələrim və həyatımda gördüyüm hər şey üst-üstə yığılıb məni Rusiyaya sarı itələdiklərini sezirdim. Sanki mənim qurtuluşum orada idi. Və beləliklə mən rus dilini öyrənməyə və Rusiyada oxumağa qərar verdim.

Çalışacam sizi subyektiv fikirlərimlə və dəyişikliklərimlə tanış edim.

Axır ki, arzuladığım nəhəng dövlətin qapıları üzümə açıldı. Nijniy Novqorod şəhərinə üz tutdum. Rus dilini zəif bildiyimə görə, getmək, görmək və oxumaq naminə istənilən ixtisasda oxumağa razı idim, yetər ki, gedim, oxuyum. Təbii ki, hər kəsdə olduğu kimi mənim də bəxtimə düşəcək istədiyim, istəmədiyim və neytral bölümlər vardı. Dəqiq elmlər məndən uzaq idi, humanitar fənlərə daha çox özümü yaxın hiss edirdim.

Mənim bəxtimə çətini düşdü, bilik gücümə hesablanmamışdı. Əlimdən gələni etdim, amma robototexnika bölümünü özümə sevdirə bilmədim. 1 il itirməyimə rəğmən ruhdan düşmədim, ixtisasımı dəyişməyə nail oldum. Turizm bölümünü seçdim, doğrudan da istədiyim dərsləri, maraqlı fənləri öyrədirdilər.

Dili öyrənmək üçün mənə hərkəs – müəllimdən tutmuş tələbə yoldaşlarıma qədər bədii ədəbiyyata üz tutmağı tövsiyə edirdilər, ədəbiyyatdan başla deyirdilər.

Vəziyyətdən çıxış yolunu ancaq praktik olaraq komplekslərimi bir kənara atıb rus dilində söhbət edərək, çox danışmaqla və nəzəri olaraq çox kitab oxumaqla, filmlər izləməklə axtarışa başladım.

Mən əslində dərin üzüntü ilə deyə bilərəm ki, boya-başa çatdığım evdə məktəb kitablarından başqa kitab görməmişdim, nə də ki, nə yalan danışım, heç bir əsəri doğru-düzgün oxuyub bitirməmişdim, ancaq və ancaq məktəb dərslikləri, vəssalam. İnanıram ki, mənim kimiləri Gürcüstanda yetərincədir. Kitabsızlıqdan nə qədər ac olduğumu gec də olsa Rusiyada anladım. Oxumağa başlamasaydım yüzə qədər yazıçını tanımayacaqdım, təsəvvür edirsiniz, 100-ə qədər yazıçı nə deməkdir?!

Kimə görəsə çox az görünə bilər, razıyam, amma məncə heç kitab oxumayan adam üçün böyük nailiyyətdir, ancaq mütaliəni durdurmamaq şərti ilə.

Oxuduğum kitabların sayını artırmaq üçün əlimdən gələni edirdim. Universitetdən mənə faydalı olan ən böyük miras kitaba sevgimin artmasıdır, ona görə çox mutluyam.

Rusiyada gördüyüm qədər kitab mən heç bir yerdə görməmişdim. Kitab mağazaları indi də vaxtımı ən çox aparan mağazalardır. Orada o qədər kitab var ki, adamın sözün əsl mənasında gözləri qamaşır.

Universitetdə ən sevdiyim yer oxuma otağı idi, orada hər zaman sakitliyə riayət edirdilər. Və bir də, orada oxuyan fərqli yaş təbəqələrində insanları görmək məni motivasiya edirdi.



**İnsaf Aydın**
***Nijniy Novqorod Pedoqoji Dövlət Universiteti İdarəetmə və sosial-texniki servislər fakültəsi***

Rusiyada təhsil aldığım müddətdə mənim üçün Rusiya haqqında bütün stereotiplər öldü, yerinə mənim öz gözümlə gördüyüm Rusiya doğdu və orada özümü çox rahat hiss edirəm.

Onu anladım ki, təhsil məktəblə bitmir, universitetlə bitmir, onun xaricində ömür boyu öz üzərində işləmək, oxumaq, bilik qazanmaq naminə hər cür səy sayəsində hər gün davam edir.

Fürsətdən istifadə edib mənim təhsil almağımda əməyi keçən hər bir kəsə dərin minnətdarlığımı bildirirəm.

## 2019-CU İLİN SENTYABR AYINDAN TƏLƏBƏLƏR YENİ SİSTEMLƏ MALİYYƏLƏŞDİRİLƏCƏK

Tələbələr yeni sistemlə 2019-cu ilin sentyabr ayından maliyyələşdiriləcəklər. Bu haqda Təhsil, Mədəniyyət və İdman nazirinin müavini Aleksandre Tevzadze bildirib.

A. Tevzadzenin dediyinə görə, baş nazir Mamuka Baxtadzenin tələbələrin maliyyələşdirilmə prinsiplərinin 2019-cu ilin 1 yanvarından dəyişəcəyi təşəbbüsü üzərində artıq çalışmalara başlanılıb:

"2019-cu ildən ali təhsil sisteminin maliyyələşdirilməsinin yeni modelinin əsasının qoyulması planlaşdırılır. Bu istiqamətdə Təhsil və Elm Nazirliyi Dünya Bankının ekspertləri ilə birgə çalışır. Gürcüstanda ali təhsilin maliyyələşdirilməsi modeli və sistemdə olan problemlərə dair ilk hesabatı Dünya Bankı may ayının sonunda təqdim edib. Yekun hesabatın hazırlanması sentyabr ayında planlaşdırılıb. Maliyyələşdirmənin yeni modelinin əsasının qoyulması 2019-cu ilin yanvar ayında başlayacaq. Maliyyələşdirmə prinsipləri məlum olacaq. Bu isə abituriyentlərə konkret universitetləri, ixtisas və ya tədris proqramlarının seçimində kömək edəcək".

Tələbələrin maliyyələşdirilməsi ilə bağlı konkret planlaşdırılan dəyişikliklərə gəldikdə isə Tevzadze bildirib ki, "dəyişikliklər dövlət universitetlərinin maliyyələşdirilməsi prinsiplərinə aiddir. Baza maliyyələşdirməsinin maddəsi olacaq və bu o deməkdir ki, universitetlərin gəliri yalnız tələbələr tərəfindən ödənən təhsil haqqından asılı olmayacaq. Universitetlər baza maliyyələşdirməsi ilə alınan məbləği əlaçı tələbələrinin maliyyəsi və eləcə də tədris mühitinin və təhsil proqramlarının inkişafı, elmi tədqiqatların maliyyələşdirilməsi və strateji inkişafı üçün istifadə edəcəklər. Ali təhsil müəssisələrinin baza maliyyə modelinin uğurlu səbəblərindən biri məbləğin bölünməsi modelinin şəffaflığı olacaq. Maliyyənin bölünməsi meyarlara əsasən olacaq. Bu gün müzakirə gedir ki, hansı meyarlar bir növ texniki baxımdan etibarlı hesab oluna bilər. Yekun modelə dair qərar vermək universitetlərlə birgə keçiriləcək ictimai müzakirədən sonra Dünya Bankının ekspertlərinin məsləhətlərini nəzərə almaqla olacaq", – qeyd edib A. Tevzadze və vurğulayıb ki, 2019-cu ilin yanvar ayı dəyişikliyin qüvvəyə minməsi üçün real müddətdir.

"Nazirlik ardıcıl olaraq bütün lazımi hüquqi və texniki dəyişiklikləri həyata keçirəcək", – deyə təhsil nazirinin müavini vurğulayıb.

A. Tevzadze bildirib ki, son göstəricilərə əsasən, bakalavr pilləsində 35 minə yaxın gəncin statusu dayandırılıb, keçən semestrlə müqayisədə isə bu rəqəm 2400-ə qədər artıb.

"Tələbələrin bu ümumi sayında müxtəlif səbəblərə görə dövlət tədris qrantı qazana bilməyən gənclər var və tələbəlik statusunu dayandırıblar. Çünki təhsil haqqını ödəyə bilməyiblər. Bizim məqsədimiz odur ki, öz ixtisası ilə maraqlanan, yaxşı akademik iştirakı və təhsilini davam etdirmək istəyi olan tələbələrin təhsilinin maliyyələşməsini təmin edək. Bu istiqamətdə aparılmalı olan tədbirləri üç əsas istiqamətə bölə bilərsiniz – universitetin keyfiyyətinin təmin olunması, maliyyələşmənin həcminin artırılması və maliyyələşdirmə modelinin təkmilləşdirilməsi.

Cari il ərzində keyfiyyətin təmin olunması sisteminin təkmilləşdirilməsi məqsədi ilə vacib addımlar atıldı. Avropa təcrübəsi bölüşülüb: Yeni standartlar qəbul edilib. Onlar universitetlərin avtorizasiya və proqramlarının akreditasiya olunması prosesində xarici ekspertlərin qoşulmasını da nəzərə alacaqlar. Bunların hamısı bizi keyfiyyəti gəncləri qane edəcək və status dayandırmaq və alternativ təhsil proqramlarını axtarmağa səbəb olmayacaq ən yaxşı dərəcəli universitet proqramlarına aparıb çıxarmalıdır. Ali təhsilin maliyyələşdirilməsinin sayı da artır – son dörd il ərzində ümumi maliyyələşmənin həcmi ikiqat olub. Bu baxımdan universitet təhsilinin əlçatanlığı əhəmiyyətli dərəcədə artıb. Universitetlərin maliyyələşdirmə modelinin təkmilləşdirilməsi də vacibdir ki, universitetlər özü də fərdi seçilmiş tələbələri maliyyələşdirə bilsinlər. Bu halda maddi borc təhsilin dayandırılmasının səbəbi olmasın", – deyə Aleksandre Tevzadze bildirib.

## MÜƏLLİMLƏRİN MİLLİ PEŞƏKAR İNKİŞAF MƏRKƏZİ "MƏN VƏ CƏMİYYƏT" FƏNNİ ÜZRƏ MÜƏLLİMLƏRİN HAZIRLIĞINI HƏYATA KEÇİRİR



Başlanğıc pillənin milli tədris planına yeni "Mən və cəmiyyət" fənninin daxil edilməsi ilə bağı Gürcüstan miqyasında ibtidai sinif müəllimlərinin hazırlanmasına başlanılıb.

Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzinin direktoru Giorgi Maçabeli və direktor müavini David Xvedelidze Tsalka ictimai mərkəzində təlimlərin gedişatı ilə tanış olublar.

2 günlük təlimdə ümumilikdə 2500 müəllim iştirak edib.

Təlim iştirakçıları "Mən və cəmiyyət" fənninin standartlarının tədris planı və başqa hissələrlə, həmçinin ümum təhsilin milli məqsədləri ilə əlaqəsini müzakirə ediblər, illik proqramla tanış olublar.

Modulu uğurla başa vurduğu halda iştirakçı müəllim 0,5 kredit bal qazanacaq.

# HƏYAT HAQQINDA DÜŞÜNCƏLƏR

*Həyat beş hərfdən ibarət, içərisində böyük bir ümman gizlənən kiçik bir kəlimədir məncə. Həyat bir imtahandır – ondan dərs alaraq baxarıq önümüzə. Bir aynadır – ona necə baxarsaq onu da göstərər bizə. Xoşbəxt yaşamaqdır o, düşərik fərqli düşüncələrlə içinə. Bəzən xoşbəxt edər bizləri, bəzən də oyuncaq edər özünə. İstərsə köməklik edər bizə, bəzən də köməksiz baxar üzümüzə. Hərdən düşmən edər bizi bir-birimizə, üstəlik özü də qayıdıb düşmən olar bizlərə. Elə vaxtlar olur qanlı yaş tökdürür kirpiklərimizə, indi gülümsə deyir biz bəndələrə.*

Həyat hər gün doğan yeni bir günəşə ümidlə baxmaqdır bəlkə. Həqiqətdə isə, o bizə verilən məhdud bir zamandır əslində. Həyat bir qutudur – sirlərlə dolu verilmiş bizə. Bəzən yük olub qonar çiynimizə, bəzən isə qılınc olar əlimizə. Hər bir insanın fərqli baxış bucağı olduğu üçün o, həyatın mənasını da müxtəlif cür dərk edir. Kimi həyatın mənasını sevdiklərində və sahib olduğu hər bir şeydə görür, kimi düşünür ki, hər şeyə olan sevgi onun həyatının mənasıdır. Kimisi fikirləşir ki, həyatın mənası enişli-yoxuşlu, bəzən güldürən, bəzən ağladan, bəzən sərt, bəzən şirin, bəzən acı, bəzən qazandıran, bəzən uduzduran, bəzən mübarizə aparan, bəzən məğlub olan, bəzən də dəniz kimi coşqulu olmasındadır. Çoxları xoşbəxtliyi bütün arzularının yerinə yetməsində görür. Hər bir insanın həyatda müəyyən arzuları, istəkləri, gerçələşməsini istədiyi xəyalları olur. Bəzisi üçün bahalı maşına sahib olmaq, ev almaq, bəzisi üçün isə varlanmaqdır xoşbəxtlik. Amma unutmayaq ki, az müddət keçdikdən sonra hər şey adiləşir. Həyatda su bitmədiyi kimi, biz insanların arzuları, həyatdan istədikləri şeylər də sonsuzdur. Həyatın mənası hər bir insanın öz əlindədir. Ağıllı, kamil insan həyatını istədiyi kimi mənalı qura bilər. Həyatını necə yaşaması onun öz əlindədir. Həyat öz axarı ilə davam edir. Həyatı biz insanlar mənalı yaşamamızla çiçəkləndirib cənnətə çevirə bilərik.

Həyat gözəldir yaşamağı bilənə, kiçik şeylərlə sevinənə, hər anın dəyərini, dostluq əlaqəsi qurmağı bilənə, içdən gülümsəyə, hörmət və izzəti saxlaya bilənə.

*Həyat bir kitabdır – sınaq üçün verilmiş insana. Kimisi oxuyar mənalı edər onu, kimi də atar bir kənara, çatdırmaz sona. İndi isə uzadaq bu kitabı sizlərə, siz də qapılın bu düşüncələrə.*



Arzu Bayramova

## GYMD-NİN TƏŞKİLATÇILIĞI İLƏ 2016-CI İL, 15 İYUL TÜRKİYƏDƏ BAŞ VERMİŞ ÇEVRİLİŞƏ AİD TƏDBİR KEÇİRİLİB



İyulun 12-si Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) təşəbbüsü ilə 2016-cı il, 15 iyul tarixində Türkiyədə baş vermiş çevrilişə cəhd hadisəsinin 2-ci ili yad edilib.

Tədbirdə çıxış edən GYMD-nin sədri Musa Hacıyev hadisə ilə bağlı çıxış edərək 15 iyul çevrilişə cəhdi təkcə Türkiyəyə qarşı deyil, bütün İslam aləminə qarşı edilmiş bir cəhd olduğunu vurğulayıb.

Tədbirdə İkinci Kosalı İslam Mədrəsəsinin müdiri Natiq Əliyev, GYMD-nin əməkdaşı Bəxtiyar Tanrıverdiyev, İkinci Kosalı İslam Mədrəsəsinin müəllimi Zviad Koçalidze və digərləri də hadisə ilə bağlı çıxış edərək öz fikirlərini bildiriblər.

Tədbirin sonunda 15 iyul şəhidlərinin ruhlarına Qurani-Kərim oxunub, dualar edilib.

## QARDABANİDƏ KİLSƏNİN HASARININ BƏRPA İŞLƏRİNƏ BAŞLANILIB

Qardabani şəhərinin Ağmaşenebeli küçəsində yerləşən kilsənin hasarının bərpa işləri gedir. Bərpa işlərinin həyata keçirilməsi üçün yerli büdcədən 235 000 lari ayrılıb.

İşləri tenderdə qalib gəlmiş MMC “New Georgia” şirkəti həyata keçirir. Müqavilə şərtlərinə əsasən tikinti prosesi iki ay müddətinə başa çatmalıdır.

Tikinti işlərinin gedişatı prosesi ilə Qardabani meri Ramaz Budağaşvili və meriyanın İnfrastruktur, Tikinti və Məkan Quruculuğu Xidmətinin rəhbəri Beka Oniani yerində tanış olublar.

## QARDABANİ BƏLƏDİYYƏSİNƏ DÖRD ZİBİL MAŞINI XİDMƏT GÖSTƏRƏCƏK

Qardabani bələdiyyəsinin əhalisinə müasir standartlarla təchiz olunmuş iki yeni zibil daşıyan maşın xidmət göstərəcək. Meriya bunun üçün yerli büdcədən 500 000 lari ayırıb.

Tender sənədlərinə əsasən, avtomobillər bütün müasir texniki tələbləri qane edir.

“Qardabani bələdiyyəsi zibil daşıyan maşınları almaq üçün tenderi mart ayında elan etmişdi. İndiki mərhələdə Qardabaniyə dörd maşın xidmət göstərir və yeni maşınların əlavə edilməsindən sonra ərazi vahidlərindən bərk tullantıların çıxarılması gündəlik mümkün olacaq”, – Qardabani meriyasının yayımladığı məlumatda bildirilir.

## MARNEULİDƏKİ “NƏRİMAN NƏRİMANOV ADINA MƏDƏNİYYƏT EVİ” İLƏ BAĞLI 15 İLLİK MÜƏMMA

Son günlər Gürcüstan azərbaycanlıları arasında Marneuli rayonunun mərkəzində yerləşən və Azərbaycanın tanınmış dövlət xadimi və yazıçısı Nəriman Nərimanovun adını daşıyan Mədəniyyət Evinin adının dəyişdirilməsi ilə bağlı böyük narazılıq yaranıb.

Builki Ramazan bayramı ərəfəsində Gürcüstan Müsəlmanları Ali Dini İdarəsi iyunun 15-də N. Nərimanov adına Mədəniyyət Evinin qarşısında tədbir keçirilməsinə icazə verilməsi xahişi ilə Marneuli rayon rəhbərliyinə məktubla müraciət edib. Marneuli meri vəzifəsini icra edən Zaur Tabatadzenin imzaladığı cavab məktubunda rayon ərazisində həmin adda mədəniyyət evinin mövcud olmadığı bildirilib, bu səbəbdən Ramazan bayramı ilə bağlı qeyd olunan yerdə tədbirə icazə verilməyib.

Maraqlısı budur ki, mədəniyyət evinin N. Nərimanovun adını daşıyıb-daşımaması ilə bağlı məsələ ilk dəfə deyil ki, müzakirələrə səbəb olur. Belə ki, 2016-cı ildə bu mövzu sosial şəbəkələrdə müəyyən müddət müzakirə olunduqdan sonra unudulub.

Xatırladaq ki, N. Nərimanov Gürcüstanda Qori seminariyasını bitirəndən sonra Qızılhacılı kəndində müəllimlik fəaliyyətinə başlayıb. Onun kənddə həkim kimi fəaliyyət göstərdiyi də bildirilir. Marneuli rayonunda N. Nərimanovun büstü, Qızılhacılı kəndində isə onun adını daşıyan məktəb var. 2017-ci ilin iyunundan Tbilisidə Nəriman Nərimanovun ev muzeyi fəaliyyət göstərir.



Marneulidəki mədəniyyət evinə N. Nərimanovun adının verilməsi barədə qərar 2003-cü ildə Marneuli şəhər Məclisi tərəfindən 2 mindən çox yerli sakinin imzaladığı müraciət əsasında qəbul olunub. Məclisin o zamankı sədri İsrafil Bayramov bildirib ki, qərarın surəti Marneuli rayon icra hakimiyyətinə təqdim olunub, lakin həmin qərarın icra hakimiyyəti tərəfindən təsdiqlənməsinə ehtiyac olmayıb.

2007-ci ildən N. Nərimanov adına Mədəniyyət Evi kimi tanınan binada Marneuli bələdiyyəsinin Mədəniyyət Klubu, kitabxana və muzey birliyi fəaliyyət göstərir. Birliyin sədri Nato Şavişvili bildirib ki, təşkilatın yarandığı vaxt mədəniyyət evinin N. Nərimanovun adını daşıması heç bir sənəddə əks olunmayıb.

Gürcüstanın Dövlət Reyestri Agentliyinin rəsmi saytında da Marneulidə N. Nərimanovun adını daşıyan mədəniyyət evinin mövcud olmadığı məlum olur. Agentliyin bazasındakı sənədlərə əsasən Marneulidə mədəniyyət mərkəzi 2007-ci il fevralın 16-da yaradılıb və rəsmi adı Marneuli bələdiyyəsinin Mədəniyyət klubu, kitabxana və muzey birliyidir. Marneuli bələdiyyəsinin rəsmi internet səhifəsində bələdiyyədə fəaliyyət göstərən qeyri-kommersiya hüquqi şəxslərin siyahısında da Mədəniyyət klubu, kitabxana və muzey Birliyi adlı mədəniyyət mərkəzinin adına rast gəlmək olar.

Bütün bunlara baxmayaraq, mədəniyyət mərkəzinin binasında “Nəriman Nərimanov adına Mədəniyyət Sarayı” sözünün əks olunduğu lövhə bu gün də qalmaqdadır. Lövhə üzərində yazı çətinliklə oxunur və istismar müddətini çoxdan başa vurub. Marneuli rayon rəhbərliyinə mədəniyyət mərkəzi ətrafında yaranmış anlaşılmaz vəziyyətlə bağlı yerli sakinlərdən bir neçə yazılı müraciət daxil olub. Rəhbərlik məsələni araşdırdığını və yaxın günlərdə ictimaiyyətə açıqlama verəcəyini bildirib.

Görünən odur ki, mədəniyyət evinə N. Nərimanovun adının verilməsi ilə bağlı Marneuli şəhər məclisinin qərarı qanunvericiliyə müvafiq təsdiq olunmayıb. Şəhər məclisi səviyyəsində qəbul olunmuş qərar yuxarı instansiya olan rayon rəhbərliyi tərəfindən tanınmayıb və Marneuli sakinləri 15 ildir ki, aldadılmaqda davam edir. Mədəniyyət mərkəzinin binasındakı “Nəriman Nərimanov adına Mədəniyyət Sarayı” adının yazıldığı köhnə lövhə Marneuli sakinlərinin gözlərindən pərdə kimi asılmaqdadır.

Cəmilə Babayeva, APA

## MARNEULİDƏ 1 SAYLI İCTİMAİ MƏKTƏBİN TİKİNTİSİNƏ START VERİLİB

Marneuli rayonunda 1 saylı Azərbaycan dilli ictimai məktəbin inşasına başlanılıb. Marneuli rayon başçısı səlahiyyətlərini icra edən Zaur Tabatadze, Gürcüstan Parlamentinin deputatı Ruslan Hacıyev və digər rəsmi şəxslər məktəbin tikinti prosesi və layihəsi ilə tanış olublar.

196 şagird üçün nəzərdə tutulmuş məktəbin inşasının 2019-cu ilin aprel ayında başa çatacağı nəzərdə tutulub. Tikinti işlərinə dövlət büdcəsindən 1 514 760 lari vəsait ayrılıb.

Qeyd edək ki, Marneulidə 1 saylı Azərbaycan dilli məktəbin binası 2016-cı ilin aprelində yararsız olduğundan sökülüb. Məktəbin müəllim və şagirdləri rayonunun 8 saylı məktəbinə köçürülüb.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

15 İYUL 2018-Cİ İL
№010 (69)

# NİKAHIN QEYDİYYATI NƏ DEMƏKDİR?



Nikah ailə qurmaq məqsədi ilə qadın və kişinin könüllü əlaqəsidir. Nikahın qeydiyyatı həyat yoldaşları arasında müəyyən hüquq və öhdəliklər yaradır. Gürcüstan qanunvericiliyinə əsasən, nikaha daxil olmaq yaşı 18 yaş nəzərdə tutulur.

**NİKAH HARADA QEYDİYYAT OLUNUR?**

Nikahın qeydiyyatı Ədliyyə və Nikah Evlərində, Dövlət Servislərinin İnkişafı Agentliyinin Ərazi Xidmətlərində, ictimai mərkəzlərdə və ya istənilən məkanlarda həyata keçirilə bilər.

Vətəndaşın tələbi ilə nikahın qeydiyyatı təntənəli şəkildə keçirilə bilər.

Nikahın qeydiyyat mərasimini xüsusi təntənə ilə Tbilisi, Axaltsixe, Qori, Mtsxeta, Marneuli, Zuqdidi, Tianeti, Laqodexi, Siğnaği, Poti, Kazbeki, Oni və Axalkalakidə yerləşən Nikah Evlərində həyata keçirə bilərsiniz. Həmçinin Ədliyyə Tədris Mərkəzinin Qvareli kompleksində nikah mərasimi üçün xüsusi təntənəli sahə qurulub.

**NİKAHIN QEYDİYYATI ÜÇÜN HANSI SƏNƏDLƏR TƏQDİM OLUNUR?**

Nikahın qeydiyyatı üçün aşağıdakı sənədlər təqdim olunur:

- Nikaha daxil olan şəxslərin birgə yazılı ərizəsi;
- Nikaha daxil olan şəxslərin şəxsiyyət vəsiqəsi (və ya pasport);
- Müvafiq xidmət üçün ödənilmiş məbləği təsdiqləyən qəbz (Təntənəli şəkildə və ya binadan kənarda nikahın qeydiyyatı zamanı);
- Nikah şahidi olan şəxslərin şəxsiyyət vəsiqəsi (və ya pasport);
- Əvvəlki nikahın dayandırılmasını təsdiqləyən sənəd (Nikahda olub boşananlar üçün).

**Nikahın qeydiyyat yeri və qiyməti:**

Xüsusi mərasimlə ərazi xidmətlərində – 50 lari.

Nikah Evində, xüsusi mərasimlə (iş günlərində) – 90 lari.

Nikah Evində, xüsusi mərasimlə (şənbə-bazar günlərində) – 150 lari.

Ədliyyə Evlərindən, Dövlət Servislərinin İnkişaf Agentliklərinin Ərazi Xidmətlərindən və Nikah Evlərindən kənarda – 170 lari.

# GÜRCÜSTANA YANACAQ HARADAN GƏLİR



2018-ci ilin iyun ayında Gürcüstana benzin və dizelin idxalı 86,9 min ton təşkil edib. Bu, may ayı ilə müqayisədə - 13,2 min ton azdır, ötən ilin iyun ayı ilə müqayisədə isə 1,9 min ton çoxdur. Bu haqda Neft Məhsullarının İdxalçılar Birliyi məlumat yayıb.

Onların məlumatına görə, 2018-ci ilin iyun ayında benzin yanacağının idxalı 48,1 min ton (artım 5,0 min ton), dizel yanacağının idxalı isə 38,8 min ton (azalma 18,2 min ton) təşkil edib.

Cari ilin yanvar-iyun ayında Gürcüstanda neft məhsullarının (benzin və dizel yanacağının) idxalı 516,8 min ton təşkil edib. Bu isə ötən ilin analoji dövrünun göstəricilərindən 60 min ton artıqdır. Həmçinin 2018-ci ilin ilk 6 ayı ərzində benzin yanacağının idxalı 256,7 min ton, dizel yanacağının idxalı – 260,1 min ton təşkil edib.

Yanacaq kateqoriyalarına əsasən 2018-ci ilin iyun ayında Gürcüstana benzinin idxalı: A-91 regular markalı benzin – 37,7 min ton, yəni 78,4%; A-95 premium markalı benzin – 9,9 min ton, yəni 20,6%, A-98 super markalı benzin – 0,5 min ton, yəni 1% təşkil edib.

2018-ci ildə 6 ay ərzində isə yanacağın kateqoriyalarına əsasən Gürcüstana benzin yanacağının idxalı – A-91 regular markalı benzin – 182,0 min ton, yəni 70,9%; A-95 premium markalı benzin – 71,0 min ton, yəni 27,7%, A-98 super markalı benzin – 3,7% min ton, yəni 1,4% təşkil edib.

Ölkələrə əsasən 2018-ci ilin iyun ayında benzin və dizel yanacağının idxalının ən çox həcmi – 21,1 min ton Türkmənistandan həyata keçirilib. Bu isə ümumi idxalın 24,3%-ni təşkil edir. Rumıniya – 19,2 min ton (22,1%); Bolqarıstan – 17,9 min ton (20,6%); Rusiya – 16,6 min ton (19,1%), Azərbaycan – 6,3 min ton (7,2%), Yunanıstan – 5,8 min ton (6,7%) Gürcüstana yanacaq idxal edib.

2018-ci ilin ilk 6 ayı müddətində isə benzin və dizel yanacağının idxalının ən yüksək həcmi – 143,6 min ton Rusiyadan həyata keçirilib. Bu isə ümumi idxalın 27,8%-ni təşkil edir. Sonra:

Rumıniya - 128,3 min ton (24,8%); Türkmənistan - 91,8 min ton (17,8%); Azərbaycan - 73,7 min ton (14,3%), Bolqarıstan - 51,1 min ton (9,9%); Yunanıstan - 28,2 min ton. (5,4%).

# DÜNYANIN İLK VƏTƏNDAŞ ROBOTU GÜRCÜSTANA GƏLİR



17-19 iyul tarixində dünyanın ilk robot vətəndaşı Gürcüstana gəlir. Sofiya adlı məşhur robot Tbilisidə keçiriləcək, dünyanın 70-dən çox ölkə nümayəndəsinin iştirak edəcəyi "Açıq idarəçilik tərəfdaşlığı" (OGP) sammitində çıxış edəcək.

Sammitin veb-səhifəsində təqdim olunmuş gün qrafikinə əsasən, iyulun 18-i, saat 14:30-da robot ictimai xidmətlərin və innovasiyaların sessiyasında auditoriya qarşısına çıxacaq. Sessiya Mtasminda parkında baş tutacaq.

Qeyd edək ki, qadın robot Sofiya 2015-ci ildə Hanson Robotics şirkəti tərəfindən yaradılıb. 2017-ci ildə ona Səudiyyə Ərəbistanının vətəndaşlığı verilib. Sofiya vətəndaşlıq almış ilk robot kimi tarixə düşüb.

# UŞAQ BAĞÇALARININ TƏRBİYƏÇİLƏRİ ÜÇÜN TƏLİM KEÇMƏK MƏCBURİ OLACAQ



Təhsil və elm naziri Mixeil Çxenkelinin sərəncamı əsasında erkən və məktəbəqədər tərbiyəçi-pedaqoqlar üçün peşəkar inkişaf üçün təlim-modul təsdiqlənib.

Sərəncamda qeyd olunduğuna görə, təlim-modul tərbiyəçi-pedaqoqların hazırlanması və peşəkar inkişafını nəzərdə tutur.

Təlim-modul 33 sessiyadan ibarətdir. Hər sessiya 2 saat davam edəcək.

Sərəncamda qeyd olunub ki, təlim-modulun qiymətləndirilməsi 100 ballıq sistemlə həyata keçirilir. Onu uğurla keçmək üçün iştirakçı 100 baldan 60 bal toplamalıdır. Bundan əlavə, təlim-modulun 80%-ində iştirak etməlidir. Bundan sonra isə şəxsə təlim-modul keçməsini təsdiqləyən sertifikat veriləcək. Cari il ərzində Gürcüstan miqyasında 600-ə qədər tərbiyəçi qeyd olunan təlim-modulu keçməli olacaq.

# QAZIN QİYMƏTİ DƏYİŞƏ BİLƏR



Gürcüstanın qaz paylama sahəsində fəaliyyət göstərən şirkətlər ölkənin Energetika və Su Təminatı üzrə Milli Tənzimləmə Komissiyasına istehlak tariflərinə baxılması ilə bağlı müraciət ediblər.

Müraciətlər "Socar Georgia Gas", "Kaztransqaz" ASC və "Sakorqaz" SC tərəfindən təqdim olunub.

Gürcüstanın Energetika və Su Təminatı üzrə Milli Tənzimləmə Komissiyası müraciətlərə 180 gün ərzində baxacaq. Yeni tariflərin 1 yanvar 2019-cu il tarixindən etibarən qüvvəyə minəcəyi gözlənilir.

İndiki mərhələdə qazın istehlak tariflərinin artırılıb-artırılmayacağı məlum deyil.

Qeyd edək ki, Gürcüstanda sonuncu dəfə qazın istehlak tarifləri ötən ilin iyulunda artıb. Hazırda Tbilisi sakinləri üçün qazın istehlak tarifi 46,153 tetri, bölgə sakinləri üçün isə 56,940 - 57,011 tetri təşkil edir. Bu tariflər bu ilin dekabrın 31-nə qədər qüvvədədir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bakiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.